

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (23.921)

19 fevral 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Coşqun Cəbrayılovu Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı, Elgin Həbibullayevi Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı və Elxan İbrahimovu Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı videoqəbulda çıxış edib.

Prezident İlham Əliyev çıxışında yeni təyin olunan icra başçılarına böyük etimad göstərildiyini bildirib, rayonlarda vəziyyətin dərindən təhlil edilməsi, daim insanlarla təmasda olub, onların problemlərinin öyrənilməsi, kadrların düzgün seçilməsi, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş övladlarımızın məşğulluq məsələlərinin həlli, özəl sektorun inkişafı ilə bağlı mühüm tapşırıqlar verib.

Dövlətimizin başçısı deyib ki, qanun qarşısında hamı bərabərdir. Dövlət məmurunun üzərinə düşən vəzifə və məsuliyyət onları qanunvericilik prinsiplərinə riayət etmələrinə sövq etməlidir. Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir.



## Şahmat üzrə Azərbaycan çempionatı başa çatıb




*Naxçıvan Muxtar Respublikasında ardıcıl olaraq ikinci dəfə təşkil edilən şahmat üzrə kişilər arasında Azərbaycan çempionatına yekun vurulub.*

Fevral ayının 18-də Naxçıvan Şahmat Mərkəzində kişilər arasında şahmat üzrə Azərbaycan çempionatının bağlanış mərasimində çıxış edən Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov bildirib ki, ölkə çempionatının ardıcıl olaraq ikinci dəfə Naxçıvanda keçirilməsi muxtar respublikamızda şahmata, eləcə də şahmatçılara göstərilən diqqət və qayğının bariz nümunəsidir. Çempionat naxçıvanlı şahmatçıların inkişafına, onların oyun təcrübələrinin artırılmasına böyük töhfə verdi. Azərbaycanın ən güclü şahmatçılarının burada iştirakı həm də şahmatçılarımız üçün bir stimuldur. Hər il təşkil olunan belə yarışların nəticəsidir ki, bu gün Naxçıvan şahmatçıları inkişaf yolundadır. Eyni zamanda onlar keçirilən bu yarışlardan təcrübə qazanırlar.

Seymur Talıbov bütün iştirakçıları, çempionatın qalibini və final mərhələsinə yüksələnləri təbrik edib, onlara Sloveniyada kişilər arasında keçiriləcək Avropa çempionatında uğurlar arzulayıb.

Azərbaycan Respublikası Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov çıxışında vurğulayıb ki, Naxçıvanda ardıcıl olaraq ikinci dəfə keçirilən çempionat şahmatçılarda xoş təəssürat yaradıb. Bu da təsadüfi deyil. Çünki Naxçıvan şahmat diyarı kimi ad qazanıb. Muxtar respublikanın bütün şəhər və rayonlarında şahmat məktəblərinin fəaliyyəti, eyni zamanda ümumtəhsil məktəblərində şahmat dərsinin tədris olunması bunun əyani sübutudur. Mahir Məmmədov şahmata göstərdiyi diqqət və qayğıya, həmçinin yarışın yüksək səviyyədə təşkil olunmasına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.



Sonra yarışın baş hakimi Lütfiyar Rüstəmov keçirilən çempionatın yekunu barədə məlumat verib. Bildirilib ki, beynəlxalq usta Məhəmməd Muradlı çempionatın qalibi olub.

Çıxışlardan sonra qaliblər mükafatlandırılıb. Mükafatları Azərbaycan Respublikası Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov, Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı təqdim ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

**"Şərq qapısı"**

## "HUAWEİ Technologies Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təlim keçirilib

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə "HUAWEİ Technologies Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Naxçıvan" Universitetində "Simli şəbəkələrin arxitekturası", "FTTH şəbəkəsi – Mənzilə qədər optik kabel üzərindən dar və genişzolaqlı xidmət" və "5G texnologiyası" mövzularında təlim keçirilib.*

"Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva tədbirin mahiyyəti haqqında məlumat verib, Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev muxtar respublikada rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından danışıb, "HUAWEİ Technologies Azerbaijan" MMC-nin icraçı məsul şəxsi Tural Zərbəliyev isə təlimdə iştirak edən tələbələrə slayd vasitəsilə təlim keçibdir. Təlimçi qeyd edib ki, şəbəkələrin qurulması üçün lazımi protokollar, standartlar, eləcə də əlaqənin yaradılmasında istifadə olunan kabellərlə bərabər həm də şəbəkə arxitekturası da müəyyənləşdirilməlidir. Şəbəkənin iş qabiliyyətli olması üçün standartlar, topologiyalar və aşağı səviyyə protokolları yığımı şəbəkə arxitekturası adlanır. Şəbəkə texnologiyalarının inkişafı nəticəsində çoxlu sayda şəbəkə arxitekturaları işlənib hazırlanmışdır.

Təlimdə 5G texnologiyası haqqında da məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Gigiyena və epidemiologiya sahəsində Dövlət proqramı qəbul olunub

*Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı"nın təqdimatı keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq muxtar respublikada aparılan səhiyyə islahatlarından, o cümlədən gigiyena və epidemiologiya sahəsində görülən işlərdən danışmış, Dövlət proqramının mühüm əhəmiyyətə malik olduğunu bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsi kimi gigiyena və epidemiologiya tədbirlərinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin fəaliyyəti təmin edilmiş, yeni binalar istifadəyə verilmiş, avadanlıqlar alınmış, müasir laboratoriyalar qurulmuş, ştat strukturu təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamına əsasən təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı" da bu sahədə fəaliyyətin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunmuşdur ki, əhalinin sağlamlığının qorunması və sanitar-epidemioloji xidmətin səviyyəsinin yaxşılaşdırılması məqsədilə qəbul olunmuş Dövlət proqramı sanitar-epidemioloji sabitliyin qorunub saxlanılması, gigiyena və epidemiologiya tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi, eləcə də yoluxucu və parazitar xəstəliklərin yayılmasının qarşısının alınmasına xidmət edəcək. Dövlət proqramında sanitariya nəzarətinin həyata keçirilməsi, sanitariya qaydalarına və gigiyena normativlərinə nəzarət olunması, koronavirus pandemiyası ilə mübarizə tədbirlərinin davam etdirilməsi, kadr hazırlığı ilə bağlı işlərin görülməsi, rayonların epidemioloji xəritəsinin və muxtar respublikanın epidemioloji pasportunun hazırlanması, dezinfeksiya işlərinin genişləndirilməsi kimi, ümumilikdə, 19 bənd üzrə vəzifələr müəyyənləşdirilmiş, Səhiyyə Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzi, eləcə də aid qurumlar qarşısında mühüm tapşırıqlar qoyulmuşdur. Qarşıya qoyulan vəzifələrin icrası əhalinin sağlamlığının və epidemioloji vəziyyətin qorunması, sanitariya mədəniyyətinin formalaşması və epidemioloji xidmətin müasir tələblərə uyğun qurulması kimi mühüm nəticələrin əldə olunmasına imkan verəcəkdir.

Ülvi Hüseynli bildirmişdir ki, kollektiv Dövlət proqramını əsas fəaliyyət istiqaməti kimi götürməli, Ali Məclis Sədrinin gigiyena və epidemiologiya sahəsində müəyyənləşdirdiyi vəzifələr ardıcıl şəkildə icra olunmalıdır.

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva bildirmişdir ki, muxtar respublikada aparılan ardıcıl əks-epidemik tədbirlər çərçivəsində səhiyyə sistemi və sanitar-epidemioloji xidmətin fəaliyyəti yenidən qurularaq günün tələbləri səviyyəsinə çatdırılmışdır. İdarəolunan yoluxucu xəstəliklərə qarşı peyvənd işinin təşkili, dezinfeksiya, dezinseksiya, derartizasiya, delarvasiya tədbirlərinin ardıcıl və keyfiyyətlə aparılması insanların sağlam ətraf mühitdə yaşamasını təmin etmişdir. Həyata keçirilən uğurlu sosial-ekoloji siyasət tədbirləri çərçivəsində geniş yaşıllıq zolaqlarının salınması, yeni su anbarlarının tikilməsi muxtar respublika ərazisində epidemioloji şəraitin yaxşılaşdırılmasına və əksər yoluxucu xəstəliklərin ləğvinə səbəb olmuşdur. "Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı" da Naxçıvan Muxtar Respublikasında əhalinin sanitar-epidemioloji vəziyyətinin qorunması, sanitariya mədəniyyətinin formalaşmasına nail olmaq və epidemioloji xidməti müasir tələblərə uyğun qurmaq üçün əlverişli şərait yaradacaqdır. Zeynəb Mustafayeva Dövlət proqramının mərkəz və rayon şöbələri tərəfindən icraya götürüldüyünü bildirmiş, qarşıya qoyulan vəzifələrin aidiyyəti üzrə həyata keçiriləcəyini diqqətə çatdırmış, sanitar epidemioloji xidmət səviyyəsinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər və yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin Epidemioloji şöbəsinin müdiri İradə Rəhimova demişdir ki, ötən il mərkəzin şöbə və laboratoriyaları ən son tibbi avadanlıqlarla təchiz edilmişdir. Pandemiya ilə əlaqədar olaraq mərkəzin tərkibində Xüsusi Təhlükəli Xəstəliklər laboratoriyası yaradılmış, işin keyfiyyətlə aparılması üçün lazımi dərman preparatları ilə təmin olunmuşdur. Yaradılan şərait Dövlət proqramı üzrə vəzifələrin vaxtında icrasına imkan verəcəkdir.

Rayon gigiyena və epidemiologiya şöbələrinin müdirləri çıxış edərək Dövlət proqramının əhəmiyyətini vurğulamış, qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyini bildirmişlər.

Sonda mərkəzdə arxiv işinin təşkili ilə bağlı görülən işlərə baxış olmuşdur.

**"Şərq qapısı"**

# Şərur rayonunda Yeni Azərbaycan Partiyasının gənc fəalları ilə görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə Şərur rayonunda Yeni Azərbaycan Partiyasının gənc fəalları ilə görüş keçirilib.***

Tədbiri partiyanın Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev giriş sözü ilə açaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 6-cı konfransının muxtar respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib. Qeyd edilib ki, konfransda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun proqram xarakterli məruzəsində partiya üzvləri qarşısında yeni vəzifələr müəyyənləşdirilib. Həmin vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır.

Yeni Azərbaycan Partiyasının ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun



icraçı direktoru Cəbi Quliyev bildirib ki, tarixi zərurət nəticəsində yaranan partiya xalqımızın rifahı, dövlətimizin inkişafı naminə çox geniş fəaliyyəti ilə cəmiyyətin hər bir təbəqəsinin möhkəm dəstəyini qazanıb.

Qeyd olunub ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada söz sahibi olan dövlətə çevrilib, artıq ölkəmizin həyatında yeni inkişaf mərhələsi başlayıb. Bu baxımdan Ali Məclis Sədrinin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı da qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini müasir tələblərə uyğun olaraq davam etdirir. Bu prosesdə partiyanızın gənc üzvləri də fəal iştirak edirlər.

Cəbi Quliyev ölkəmizdə, eləcə də muxtar respublikada gənclərə göstərilən yüksək dövlət qayğısından danışıb.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının yeni Əsasnaməsinə əsasən Gənclər Birliyinin üzvləri, sədri və sədr müavini təşkilat sədrinin təqdimatı əsasında İdarə Heyətinin qərarı ilə təsdiq edilir. Belə ki, Arzu Qasımov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin sədri, Elvin Əliyev sədrin müavini təyin olunublar. Eyni zamanda 15 nəfər Gənclər Birliyinin üzvü seçilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin sədri Arzu Qasımov çıxış edərək bildirib ki, partiyanın siyasi dinamizmini təmin edən amillərdən biri uğurlu gənclər siyasətinin reallaşdırılmasıdır. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi də öz fəaliyyətində gənclərin potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir, gəncliyin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirir. Görülən tədbirlərin nəticəsində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatına da gənclərin müntəzəm və sürətli axını müşahidə olunur. Belə ki, təşkilat üzvlərinin 23594 nəfərini gənclər təşkil edir. Həmin gənclər müxtəlif sahələrdə çalışır və öz fəaliyyətləri ilə daim fərqlənirlər.

Bildirilib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi qarşıya qoyulan vəzifələrin icrası məqsədilə gənclərlə işi və onların sağlam vətəndaş kimi formalaşmasını, ulu öndərin siyasi xəttinə sədaqət ruhunda tərbiyəsini diqqətdə saxlayacaq.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında olan gənclər arasında əlaqələr daha da təkmilləşdiriləcək yüksək səviyyədə qurulacaq.

Arzu Qasımov göstərilən yüksək etimada, gəncliyin inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə Naxçıvan Muxtar Respublikasının gəncləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Görüşdə Gənclər Birliyinin üzvü, Ali Məclisin deputatı Günel Vəliyeva, Gənclər Birliyi sədrinin müavini Elvin Əliyev və birliyin üzvü Əziz Qasımovun mövzu ətrafında fikirləri dinlənilib.

Görüşdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Azərbaycan dili ən ali dəyərimizdir

*Hər il fevral ayının 21-i Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur.*

***“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”***, – deyən ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin birinci dövründən başlayaraq Azərbaycan dilinin inkişafı istiqamətində məqsədyönlü iş aparmış, mövcud tarixi təcrübəni və müasir dövrün tələblərini nəzərə alaraq mükəmməl dil siyasəti həyata keçirmişdir. Bunun nəticəsidir ki, 1970-ci ildən başlayaraq Azərbaycan dili elmi şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dördcildlik “Müasir Azərbaycan dili” dərsliyi 1974-cü ildə məhz ulu öndərin təşəbbüsü ilə respublikanın dövlət mükafatına layiq görülmüşdü. Dahi rəhbər ana dilimizin 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olmuşdur.

Ölkəmiz müstəqillik qazanandan sonra bütün sahələrdə olduğu kimi, dil sahəsində də yeni qanunların qəbul edilməsinə zərurət yarandı. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ana dilimizin nüfuzunun artırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparıldı. Ana dilimizin qorunması, inkişaf etdirilməsi, bütün idarə və təşkilatlarda dövlət dili kimi tətbiq edilməsi istiqamətində daha qətiyyətli addımlar atıldı. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Ulu öndərin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyun və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2003-cü il 2 yanvar tarixli fərmanları dilimizin və dilçiliyimizin inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Həmçinin ümummilli liderin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

Ümummilli liderin ideyalarını bu gün layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli sərəncamlarına əsasən latın qrafikalı Azərbaycan əlifbası ilə dərsliklər, elmi əsərlər, lüğətlər və bədii ədəbiyyatlar çap olunaraq ölkə kitabxanalarına paylanılmışdır. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair” Dövlət proqramının qəbul edilməsi dövlətdil siyasətinin bütün parametrlər üzrə həyata keçirilməsinə şərait yaratmışdır. “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” 2017-ci il 13 noyabr tarixli Sərəncam dilçi alimlərin fəaliyyətinin koordinasiya olunmasına və səylərin birləşdirilməsinə şərait yaratmışdır.

Ölkə başçısının “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli Sərəncamı və “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 1 noyabr tarixli Fərmanı müstəqil ölkəmizdə dövlət dili istiqamətində ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamı, dilimizə dövlət səviyyəsində göstərilən qayğının daha bir nümunəsidir. Dövlət dilinin daha da inkişaf etdirilməsi sahəsində həyata keçirilən ardıcıl siyasət qloballaşma şəraitində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və milli varlığının qorunub saxlanılmasına, daha da möhkəmləndirilməsinə dövlət səviyyəsində göstərilən qayğının parlaq bir nümunəsidir. Bu, ilk növbədə, özünəməxsus davamlı ənənələrə, möhkəm və dayanıqlı prinsiplərə, zəngin söz ehtiyatına malik Azərbaycan dilinin yad və kənar təsirlərdən qorunmasının təmin edilməsinə xidmət edən dövlət fərmanıdır. Bu fərman Azərbaycanın dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından qarşıya daha məsuliyyətli vəzifələr qoyur.




Ölkə Prezidenti cənab İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dilimizin başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: ***“Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq”.***

Bu gün Naxçıvan Muxtar Respublikasında da dövlət dil siyasəti uğurla həyata keçirilir, ən ali milli dəyərimiz olan dövlət dilimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir. Son illər muxtar respublikada nəşr olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, 3 cilddə “Naxçıvan folkloru antologiyası”, “Dədə Qorqud yurdu Naxçıvan atlası”, “Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası”, türk-islam ədəbiyyatının “Şahnamə”si sayılan “Qutadqu bilik” (XI əsr) poemasının, “Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri”, böyük islam mütəfəkkiri Nemətullah Naxçıvaninin 3 cildlik “Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə”, 3 cildlik “Naxçıvan tarixi” kitabları, xeyli sayda digər nəşrlər tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin də qorunub saxlanılması sahəsində əsaslı tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncamı gənclərdə mütaliə mədəniyyətini formalaşdırmaqla yanaşı, onlarda ana dilinə sevgi və hörmət hisslərini də artırmışdır. Bu gün muxtar respublikada ticarət və iaşə obyektlərinə, coğrafi ünvanlara doğma dilimizdə adların verilməsi, reklam lövhələrinin dilimizin qayda-qanunlarına uyğun yazılması ana dilimizin qorunması sahəsində həyata keçirilən tədbirlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması dilimizlə bağlı tədbir və nəşrlərin həyata keçirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Həmçinin Naxçıvan Yazıçılar Birliyinin fəaliyyətinin gücləndirilməsi, onun nəzdində Tərcümə mərkəzinin fəaliyyətə başlaması da dilimizin, sözümüzün qorunub inkişaf etdirilməsində mühüm addımlardandır. Azərbaycan dilinin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, ötən dövrdə dilimizin işləkliyi və düzgün təbliği diqqət mərkəzində saxlanılmış, muxtar respublikanın televiziya və radiolarında Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır. Bu qurumlar televiziya və radio kanallarında, mətbuat orqanlarında və sosial şəbəkələrdə Azərbaycan ədəbi dil normalarının pozulması hallarının qarşısının alınmasında ictimaiyyətin də fəal iştirakının təmin edilməsi və operativ tədbirlərin görülməsində mühüm rol oynayır.

Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Qanunu ilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə 533.1-ci maddə əlavə edilmişdir. Həmin dəyişikliyə əsasən muxtar respublikada dövlət dili normalarının pozulması teleradio yayımlarında baş verdikdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədrinə, şöbə və sektor müdirinə, digər kütləvi informasiya vasitələrində aşkar edildikdə Naxçıvan Mətbuat Şurasının sədrinə protokol tərtib etmək səlahiyyəti verilmiş, bu istiqamətdə xeyli iş görülmüşdür.

Naxçıvan Dövlət Universitetində də Azərbaycan dili fənni ilə bağlı dərslərin tədrisinə və ixtisaslı kadr hazırlığına xüsusi diqqət yetirilir. Tarix-filologiya fakültəsində Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə bakalavr səviyyəsinin bütün kurslarında fənnin müxtəlif dərəcədə tədrisinin həyata keçirilməsindən başqa, xarici dillər fakültəsində, qeyri ixtisaslarla əlaqəli fakültələrdə Azərbaycan dili, nitq mədəniyyəti dərsləri də yüksək səviyyədə təşkil olunur. Bundan başqa, universitetin magistr səviyyəsində Azərbaycan dili fənni ilə bağlı pedaqoji və nəzəri istiqamətli bir sıra dərslər keçilir. Bu baxımdan dilin müxtəlif sahələri – orfoqrafiya və orfoepiya, fonetika, leksikologiya, morfologiya, sintaksis, ədəbi dil, poetik linqvistika, üslubiyyat üzrə biliklər verilir. İxtisaslara uyğun olaraq dərslərdə tanınmış professor və elm xadimləri iştirak edir. Həmçinin tələbələrin müasir şair və yazıçılar, elm xadimləri ilə mütəmadi olaraq görüşləri təşkil edilir ki, bunlar da tələbələrin öz ixtisaslarına daha dərindən yiyələnmələrinə şərait yaradır. Azərbaycan dili və ədəbiyyat kafedrasının professor və müəllim heyətinin çap olunmuş 50-dən artıq kitabı, yüzlərlə elmi və metodik məqalələri fənnin daha dərindən öyrədilməsində mühüm əhəmiyyətə malikdir. AMEA Naxçıvan Bölməsində də Azərbaycan dilinin bir sıra vacib məsələləri, Naxçıvan Muxtar Respublikasının onomastik vahidləri, dialekt və şivələri yüksək səviyyədə tədqiq edilərək xaricdə və ölkəmizdə çoxsaylı elmi əsərlərin çapına nail olunmuşdur. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə tələbələrinə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi dərəcəli əməkdaşları tərəfindən Azərbaycan dilinin ümumi problemləri, Naxçıvanın dialekt və şivələri, onomastik vahidləri və digər məsələlər ətrafında təlimlər keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bütün təhsil müəssisələrinin infrastrukturu yenilənmiş, maddi-tədris bazası möhkəmləndirilmiş, tədrisin yüksək səviyyədə təşkili üçün geniş imkanlar yaradılmışdır. Təhsil müəssisələrinin kitabxanaları da zəruri avadanlıqlarla təchiz olunmuş, fondu zənginləşdirilmiş, 3 milyona yaxın dərslik, 600 mindən çox bədii ədəbiyyatla təmin edilmişdir. Hər il muxtar respublikanın ümumtəhsil məktəblərində Azərbaycan dilinin inkişafı və qorunması ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilir. Azərbaycan dilinin tarixi barədə məktəblilərin əldə etdikləri bilikləri təkmilləşdirmək, onlarda doğma dilimizə sevgi və hörmət hissini daha da artırmaq, nitq mədəniyyətini formalaşdırmaq və istedadlı şagirdləri aşkara çıxarmaq məqsədilə dilimizin zənginliyi şagirdlərimizə təbliğ edilir, məktəblərarası inşa yazı, şeir müsabiqələri, yarışlar keçirilir, maarifləndirici söhbətlər aparılır. Eləcə də mütaliə aylığı, kitab müzakirəsi və oxucu konfransları, ədəbi-bədii gecələr, disputlar, bilik yarışları təşkil edilir.

*Ana dilimiz əsrlərin qan yaddaşı, daş hafizəsidir. Heç bir dilin təsirində əriməyən, şirinliyini, axıcılığını, anlaşıqlılığını itirməyən, illər, əsrlər keçdikcə daha da cilalaşan və öz layiqli qiymətini alan dildir. Bizim hər birimiz bu dilin saflığının qorunmasının qayğısına qalmalıyıq.*

**Zülfiyyə İSMAYIL**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent***

***Dinamik sosial-iqtisadi inkişafa nail olmaq üçün mövcud əmək potensialından səmərəli istifadə, iqtisadi baxımdan aktiv əhalinin işgüzar fəallığının artırılması, əməyin sosial nöqteyi-nəzərdən effektiv təşkili başlıca şərtlərdən hesab olunur. Bu məqsədlər əsas götürülərək həyata keçirilən tədbirlər əhalinin etibarlı məşğulluğunun təmin olunmasına və rifahının yüksəldilməsinə şərait yaradır.***

*Dövlət proqramı icra olunur*

# Məşğulluq səviyyəsinin yüksəldilməsi əhali rifahının yaxşılaşmasına şərait yaradır

Naxçıvan Muxtar Respublikasında məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə görülən işlər insan amilinin ön planda tutulmasını aydın şəkildə nümayiş etdirir. Əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsi həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdə görülən işlərin kompleks xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın mühüm rolu vardır.



Ötən il proqramın icrası ilə bağlı işlərin uğurla həyata keçirilməsi muxtar respublikada əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təmin etmişdir. Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi yeni istehsal müəssisələrinin yaradılmasına və açılan iş yerlərinin sayının artmasına səbəb olmuşdur. Belə ki, 2021-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən, ümumilikdə, 151 layihənin maliyyələşdirilməsinə 7 milyon 744 min 378 manat həcmində güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu dövrdə dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 157 istehsal sahəsinin yaradılması başa çatdırılmışdır. Yeni yaradılan istehsal sahələrində 660 iş yeri açılmış, 498 yeni iş yerinin açılması istiqamətində işlər isə davam etdirilmişdir.





Muxtar respublikada yeni iş yerlərinin açılması əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, bu istiqamətdə mümkün zərurət tədbirlərin uğurla reallaşmasına da şərait yaradır. Təşkil edilən əmək yarmarkaları bu iş yerlərinin kadrlarla təmin olunmasına və işaxtaranların ixtisasına uyğun iş yeri seçməsinə imkan verir. Onu da qeyd etmək lazımdır ki, məşğulluq tədbirləri həyata keçirilərkən gənclərin və sosial cəhətdən qayğıya ehtiyacı olan cəmiyyət üzvlərinin maraqları xüsusi nəzərə alınır. Ötən il Dövlət proqramının icrası istiqamətində tətil günlərində işləmək istəyən 54 tələbə müvəqqəti və mövsümi işlərlə təmin olunmuşdur. Bu dövrdə 10 sosial qayğıya ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxs onlar üçün ayrılmış kvota yerlərinə işə göndərilmişdir. Bu kateqoriyadan olan şəxslərin dövlət və özəl müəssisələrdə işlə təmin edilməsi məqsədilə 2022-ci il üçün 64 kvota yeri müəyyən olunmuşdur. Kənd xidmət mərkəzlərində 8-i bərbər, 7-si bərbər-manikürçü və 4-ü dərzi olmaqla, 19 nəfər işlə təmin edilmişdir. İşaxtaranların sosial müdafiəsini gücləndirmək məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, keçirilən əmək yarmarkalarında 622 nəfərə müvafiq işlə təmin olunması üçün göndəriş verilmişdir. Ümumilikdə, 2021-ci ildə muxtar respublikada 2 min 972 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur ki, onların 758-ni gənclər, 523-nü qadınlar, 76-nı isə sağlamlıq imkanları məhdud şəxslər təşkil etmişdir.

Əmək bazarının tələbinə uyğun əmək ehtiyatlarının formalaşdırılması məşğulluq siyasətinin məqsədlərindən biridir. Bu məqsədlə görülən işlər insan kapitalının inkişafına və bazarın peşəkar kadrlarla təmin olunmasına gətirib çıxarır. Ötən il Naxçıvan Regional Peşə Tədris Mərkəzində 7 peşə üzrə 14 kursa 264 nəfər cəlb edilmişdir ki, onlardan 129-u gənclər olmuşdur. Bu dövrdə Təhsil Nazirliyinin peşə təhsili müəssisələrində təşkil edilən peşə kurslarını 392-si gənc olmaqla, ümumilikdə, 1191 nəfər bitirmişdir. Qeyd olunanlarla yanaşı, proqramın icrası məqsədilə təsdiq olunmuş qrafik əsasında 7 min 430 yuxarı sinif şagirdinə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmişdir. Çünki gənclərin bacarığına uyğun iş seçərkən bazarın tələbini nəzərə alması cəmiyyətdə əmək məhsuldarlığına müsbət təsir göstərən önəmli faktorlardandır.

Dövlət proqramında nəzərdə tutulan sosial layihələrin davam etdirilməsinin mütərəqqi əhəmiyyəti vardır. Bu layihələrin uğurla reallaşdırılması sosial qayğıya ehtiyacı olan şəxslərin və ailələrin reabilitasiyası, onlar üçün özünütəminetmə imkanının yaradılması deməkdir. Ötən il muxtar respublikada 26-sı şəhid ailəsi olmaqla, 330 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin edilmişdir. Həmçinin əvvəlki dövrlərdə aktiv verilmiş sahələrdə monitorinqlər davam etdirilmiş, əlavə olaraq təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirən 2 şəxsə südsağan, 6 şəxsə otdoğrayan, 5 şəxsə isə arpa-buğdaqıran aqreqat verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün muxtar respublikada ailə təsərrüfatlarının inkişafı özünüməşğulluğu təmin etməklə yanaşı, həm də kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradır. Eyni zamanda özünüməşğulluq tədbirləri sırasında əhalinin aztəminatlı təbəqəsi aktiv əməyə cəlb edilir, dövlət tərəfindən bu kateqoriyadan olan ailələrə dəstək göstərilir".***

2021-ci ildə qadınların məşğulluğunun təmin edilməsi, onların öz gəlirləri ilə ailə büdcəsinə dəstək olmaları istiqamətində sosial layihələrin icrası da davam etdirilmişdir. Bu məqsədlə sağlamlıq imkanları məhdud qadınlarla müqavilələr bağlanmış, onlar tərəfindən yundan toxunan 2 min 500 cüt corab, 2 min 200 jilet və 1000 boyunluq hərbi hissələrə təhvil verilmişdir. Həmçinin Novruz bayramı ərəfəsində bu sosial kateqoriyaya məxsus qadınların hazırladığı 1084 səməni bayram sovqatı ilə birlikdə sağlamlıq imkanları məhdud şəxslərə təqdim olunmuşdur. Ötən il 7 rayonda toxuculuq, 2 rayonda xalçaçılıq, 2 rayonda isə dekorativ-tətbiqi sənət sahəsi üzrə, ümumilikdə, 69 sosial qayğıya ehtiyacı olan və 123 sağlamlıq imkanları məhdud qadına təlimlər keçirilmişdir. Həmçinin "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsi çərçivəsində maliyyə savadlılığı təlimləri təşkil olunmuşdur. Layihənin yekun tədbirində 26 qadına məşğulluqlarının təmin edilməsi üçün sərmayə kapitalı verilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən sosial qayğıya xüsusi ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə görülən işlər stimullaşdırıcı xarakter daşımışdır. Bu istiqamətdə Naxçıvan şəhəri və rayonlarda fəaliyyət göstərən əl işi mağazalarında, Naxçıvan Biznes Mərkəzində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində təşkil edilən göyçə, arıçılıq və ailə təsərrüfatı məhsulları yarmarkalarında, eləcə də Heydər Əliyev Sarayında keçirilən sərgi satışlarda, ümumilikdə, 517 şəxsin 32 min 981 manat məbləğində 3 min 778 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur.

İqtisadi fəaliyyətin özəyini təşkil edən istehsal və xidmət prosesinin keyfiyyətli təşkili üçün əməyin mühafizəsi əsas şərtlərdəndir. İşçilərlə əmək müqavilələrinin bağlanması, onlar üçün təhlükəsiz əmək şəraitinin yaradılması işgüzar fəallığa təkan verir ki, bu da iqtisadi artım üçün olduqca vacibdir. Proqramın icrası çərçivəsində ötən il qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə aparılan monitorinqlər zamanı 156 sahibkarlıq obyektində 276 işçinin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edildiyi müəyyənləşdirilmişdir. İşçilərin əmək müqavilələri bildirişlərinin müvafiq elektron informasiya sisteminə daxil edilməsinə dair işəgötürənlərə yazılı xəbərdarlıq edilmiş, bu xəbərdarlıqların icra müddətinin olunması diqqətdə saxlanılmışdır. Yoxlamalar zamanı 83 obyektdə fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 248 işçi həmin vasitələrlə yerində təmin olunmuş, 92 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. Bununla yanaşı, "Əməyin mühafizəsi" adlı rüblük elektron jurnalın dərc olunması davam etdirilmişdir ki, burada da məqsəd işçilərin sosial müdafiəsinin təmin edilməsi olmuşdur.

Sağlam fəaliyyət şəraitində işləmək hüququnu təmin edən digər mühüm tədbir isə əməyin sığortalanmasıdır. Ötən il Dövlət proqramında nəzərdə tutulan tapşırığın icrası məqsədilə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə 34 min 484 nəfərlə sığorta müqaviləsi bağlanmışdır.

Əməkçi miqrantların qanunsuz əmək fəaliyyətinə cəlb edilməsinin və ixtisassız miqrantların əmək bazarında iştirakının qarşısını almaq yerli əmək resurslarından effektiv istifadəyə şərait yaradır. Ötən il bu istiqamətdə maarifləndirici tədbirlər davam etdirilmiş, haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün müraciət edən 205 əcnəbiyə iş icazəsi ilə bağlı rəy verilmişdir. Bu dövrdə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 5 əcnəbi aşkarlanmış və onlar barəsində qanunvericiliyə uyğun tədbirlər görülmüşdür.

Qeyd olunanlar deməyə əsas verir ki, Naxçıvanda əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması işi və müvafiq Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası yeni nailiyyətlərlə davam edir.

**"Şərq qapısı"**

## Teleradio jurnalistikasının inkişafı diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası muxtar respublikanın teleradiolarının fəaliyyətini yanvar ayında da izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolar tərəfindən icrasını diqqətdə saxlamışdır.

Naxçıvan radiosu ay ərzində 487 saat efirdə olmuşdur. Ümumi efirin 39 faizini radionun öz istehsalı olan verilişlər, canlı proqramlar, xəbər buraxılışları, audioçarxlar, 61 faizini isə konsert proqramları və digər hazır materiallar təşkil etmişdir. Ay ərzində radionun proqram siyasətində bir sıra dəyişikliklər olunmuş, "Arzular-istəklər" canlı proqramı, ümumiyyətlə, proqramdan çıxarılmış, "Nahar vaxtı" proqramının efir vaxtı bir saata endirilmişdir. Ay ərzində radioda bəzi yeni layihələr təqdim edilməyə başlanılmışdır. Naxçıvan radiosunun fəaliyyətə başlamasının 90 illiyi münasibətilə "90 ilin səsi" verilişi hazırlanaraq efirə təqdim olunmuşdur.

"Kanal 35" televiziyası bəhs olunan dövrdə 91 dərs vaxtı efirə yayımlanmış, yerli istehsal olan 18 film efirə təqdim olunmuşdur.

"Naxçıvanın səsi" radiosunun da efiri izlənilmiş, təqdim edilən konsert proqramları və canlı verilişlərin təhlili aparılmışdır. Bəhs edilən dövrdə "Naxçıvanın səsi" 488 saat efirdə olmuş və efir müddətinin 145 saatını canlı yayım proqramları təşkil etmişdir.

Şura Universitet televiziyasının efir fəaliyyətini diqqətdə saxlamış, şura əməkdaşı televiziyada olmuş, əməkdaşlarla çatışmazlıqlar haqqında fikir mübadiləsi aparmışdır.

Universitetin "Nuhçıxan" radiosunda "Xəbərlər" proqramı ilə yanaşı, universitet həyatından bəhs edən radioverilişlər də efirə yayımlanmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## Elmi konfrans



*AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının birgə iştirakı ilə böyük Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusinin həyat və fəaliyyətinə həsr olunmuş elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev böyük alim Nəsirəddin Tusinin həyatı və elmi yaradıcılığına nəzər salıb. Onu elmin dühası, fitri istedada malik elm xadimi kimi xarakterizə edib. Qeyd olunub ki, elmin bütün sahələri üzrə 100-dən artıq əsər müəllifi olan Tusi dünyada fundamental əsərlər müəllifi kimi tanınır. O, elm sahəsindəki yüksək nailiyyətləri və uzaqgörənliyi ilə dünya elmini bir neçə əsr qabaqlayan yüksək zəkaya malik elm xəzinəsidir.

Bölmənin Təbii Ehtiyatlar İnstitutunun icraçı direktoru, kimya elmləri doktoru Bayram Rzayev konfransda "Bəşəri dühа Nəsirəddin Tusi təlim və tərbiyə haqqında", Batabat Astrofizika Rəsədxanasının əməkdaşları Vəfa Qafarova "Marağa rəsədxanasının əməkdaşları" və Faidə Hüseynova "Nəsirəddin Tusi və riyaziyyat", Batabat Astrofizika Rəsədxanasının baş direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev isə "Şərqdə astronomiyanın inkişafında Marağa rəsədxanasının rolu" mövzularında məruzə ediblər.

Məruzələrdə böyük alimin həyatı, fəaliyyəti, elmi irsi, əsərləri və Marağa rəsədxanası haqqında geniş məlumat verilib, görkəmli mütəfəkkirin alim və ictimai xadim kimi fəaliyyətindən də bəhs olunub, müasirlərinin onun haqqındakı fikirləri diqqətə çatdırılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Tələbələrin pedaqoji və istehsalat təcrübələrinin başlanğıc konfransı keçirilib



Naxçıvan Dövlət Universitetində fakültələr üzrə cari tədris ilinin ikinci yarısına aid pedaqoji və istehsalat təcrübələrinin başlanğıc konfransları keçirilib.

Universitetin rektoru, dosent Elbrus İsayev pedaqoji təcrübənin muxtar respublikanın ali və orta təhsil müəssisələrinin sıx əməkdaşlığı, tələbələrin pedaqoji ustalıqlara yiyələnmələri baxımından əhəmiyyətini, təcrübi dərslər zamanı informasiya-kommunikasiya vasitələrindən istifadənin, elmi-kütləvi, mədəni tədbirlərin keçirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Qeyd edək ki, universitetin əyani şöbəsində 6 fakültə üzrə 16 ixtisas olmaqla, ümumilikdə, 379 nəfər IV kurs tələbəsi muxtar respublikanın 17 şəhər və Babək rayonunun Şıxmahmud kənd tam orta məktəbində pedaqoji təcrübədə olacaqlar. Ümumilikdə, istehsalat təcrübəsinə cəlb edilən tələbələr isə dövlət qurumları, nazirliklər, müxtəlif mərkəz və təşkilatlar, komitələr, televiziya, qəzet redaksiyasında və bu kimi 26 dövlət müəssisəsində 14 həftə müddətində təcrübə keçəcəklər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fevralın 2-də Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda deyib:* ***"Bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir və əlbəttə ki, yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur".***

*Gəncliyimiz, gələcəyimiz*

# Gənclər Vətənin işıqlı sabahı, nurlu gələcəyidir




Əlbəttə ki, bu gün özünün yüksək inkişaf mərhələsini yaşayan dövlət gənclər siyasəti ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlamdüşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır.

Muxtar respublikada da dövlət gənclər siyasəti uğurla həyata keçirilir. Gənc nəslin sağlam, bilikli və vətənpərvər ruhda böyüməsinə ciddi önəm verilir, onların cəmiyyətin bütün sahələrində fəal iştirakı təmin olunur. Gənclərə böyük qayğının ifadəsidir ki, muxtar respublikada Gənclər Mərkəzi, elektron kitabxanalar, yeni məktəb binaları, mədəniyyət evləri, ali təhsil müəssisələri üçün yeni tədris korpusları, olimpiya idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək onların istifadəsinə verilmişdir. Bütün bunlar isə gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Muxtar respublikanın ictimai həyatında fəal iştirak edən istedadlı gənclərdən biri də Əziz Qasımovdur. Məlumat üçün qeyd edək ki, Əziz 1996-cı ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilini başa vurduqdan sonra 2017-ci ildə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını, 2019-cu ildə Naxçıvan Dövlət Universitetinin Dövlət hüququ ixtisaslaşması üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirib. Təhsil aldığı illərdə universitetin ictimai həyatında fəal iştirak edib, bir çox layihənin rəhbəri, ideya müəllifi, təşkilatçısı olub. Respublikamızın müxtəlif bölgələrində keçirilən intellektual yarışlarda Naxçıvanı və Naxçıvan Dövlət Universitetini təmsil edən komandaların üzvü kimi iştirak edib. Elmi və ictimai işlərdə fəallığı qiymətləndirilib. Belə ki, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "İlin fəal gənci" mükafatına, 2019-cu ildə isə Naxçıvan Dövlət Universitetində "İlin magistrantı" fəxri diplomuna layiq görülüb. Magistr təhsili aldığı dövrdə 2 elmi məqalənin və 2 publisistik məqalənin müəllifi olub. Onun hazırladığı "Gənclərin aktivliyinə psixoloji dəstək təlimləri", "Zəka sənsən" məntiq olimpiadası, "Hüquq günləri", "Üstün zəka" intellektual oyunu, "Muxtariyyət-95" intellektual oyunlar üzrə çoxnövçülük turniri kimi layihələri yüksək dəyərləndirilib. Əziz, həmçinin 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın elan etdiyi startap müsabiqəsinin qalibi olub. Hərbi xidməti başa vurduqdan sonra 2020-ci ildən Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasında pedaqoji fəaliyyətə başlayıb. Tədris etdiyi fənləri elmi və metodik cəhətdən yüksək səviyyədə quran Əziz müəllim 2 elmi və 2 ictimai-siyasi mövzuda məqalənin müəllifidir. Bir respublika elmi konfransında və bir beynəlxalq forumda iştirakı da onun fəallığının göstəricisidir.

Əziz Qasımov 2021-ci ilin yanvar ayında Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri seçilib. Təşkilatın sədri kimi "Oxunması zəruri olan kitablar", "Naxçıvan Dövlət Universiteti tələbə təşkilatları" mobil tətbiqi, Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrinin tələbələri arasında I regional hüquq, Siyasi biliklər olimpiadası, Tələbə-Gənclər Təşkilatı Könüllüləri proqramı, "Xarıbülbül" kuboku uğrunda "Nə? Harada? Nə zaman?" intellektual oyunu, "Gənclərin qrafologiya məktəbi", "Söz sənətinin dahisi – Nizami" mövzularında tələbələrarası təqdimat müsabiqəsi kimi yeni layihələr Əziz uğurlar gətirib. Universitetin Tələbə-Gənclər Təşkilatı 28 dekabr 2021-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən keçirilən ilin yekun tədbirində "İlin ən yaxşı tələbə-gənclər təşkilatı", həmçinin Azərbaycan Respublikası Gənclər Fondu və Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə Bakı şəhərində 2 fevral – Gənclər Gününə həsr olunmuş Tələbə-Gənclər Təşkilatlarının I strateji planlaşdırma forumu çərçivəsində 2021-ci ildə ölkədə ictimai və sosial əhəmiyyətli, o cümlədən könüllü fəaliyyətin təşkili və bu fəaliyyətin həyata keçirilməsində fəal iştirakına görə Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatı "İlin ən yaxşı Tələbə-Gənclər Təşkilatı" nominasiyası üzrə mükafatlandırılıb.



Onun fəaliyyətinə ən böyük qiymət isə Prezident cənab İlham Əliyevin fevralın 1-də 2022-ci il gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncamına əsasən Əziz Qasımovun da gənclər siyasəti və gənclərlə iş sahəsi üzrə fərqləndiyinə görə Prezident mükafatına layiq görülməsidir.

Müsahibim Əziz Qasımovla uğur təəssüratlarını bölüşürük. O deyir ki, ölkə başçısı tərəfindən mükafat almaq çox qürurlu bir hissdir, eyni zamanda böyük məsuliyyətdir. Ona görə də kim bu mükafata layiq görülübsə, bu etimadı doğrultmağa çalışmalıdır. Mən bu mükafatı təkcə mənə verilən dəyər deyil, eyni zamanda Naxçıvan Muxtar Respublikasının gənclərinə verilən dəyər hesab edirəm. Onu da qeyd edim ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə təsis olunan 2 fevral – Gənclər Gününün 25 illiyi münasibətilə cənab Prezidentin gənclərlə görüşünü çox maraqla və diqqətlə izlədik. Bu görüşün təəssüratlarını gənclərimiz uzun müddət unutmayacaq. Bu görüş Azərbaycan gəncliyinin gələcək fəaliyyətində, dünyagörüşündə və düşüncəsində yeni yanaşmalara yol açacaq, eyni zamanda onlar üçün bir strateji yol xəritəsi rolunu oynayacaq.

Həmsöhbətim onu da vurğuladı ki, 5 fevral 2022-ci il tarixdə Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbovun Naxçıvan şəhərində gənclər və idman ictimaiyyətinin nümayəndələri ilə görüşü də hər birimiz üçün yaddaqalan oldu. Görüşdə çox doğru olaraq deyildi ki, Naxçıvan gəncliyi hər zaman novator və kreativ gənclik kimi tanınıb. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həll edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq Dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə onların irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi bu istiqamətdə atılan mühüm addımlardandır.

Müsahibim qürurqarışıq sevinc hissi ilə dedi: "Bu gün mənim üçün fəxrdir ki, mən məhz məzun olduğum Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərirəm. Təhsil aldığım müddətdə burada yaradılan şərait, bizə göstərilən dövlət qayğısı, hələ tələbə ikən istedadlı gənclərin fəaliyyətinin yüksək qiymətləndirilməsi, ictimai işlərdə iştirak etməyimiz bizim üçün həmişə böyük stimul olub. Məzun olduqdan sonra belə bir ali təhsil ocağında işlə təmin olunmağım muxtar respublikada ixtisaslı gənc kadrlara göstərilən yüksək qayğının nümunəsidir. Fəxr edirik ki, ötən il universitetimiz ilin ən yaxşı universiteti, rektor Elbrus İsayev isə ilin ən yaxşı rektoru seçilib. Biz də inanırıq ki, Naxçıvan gəncliyi bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edəcək, onlara göstərilən etimadı doğruldacaqdır".

Bu, bir reallıqdır ki, müstəqillik illərində gənclərimizin intellektli, müasir dünyagörüşlü, ən əsası isə cəmiyyətə yararlı, layiqli vətəndaş kimi yetişməsi üçün istənilən şərait yaradılıb. Hərtərəfli dövlət qayğısı zəkalı, istedadlı, təşəbbüskar gəncliyin parlaması üçün geniş üfüqlər açıb. Biz gəncliyə isə bu qayğını layiqincə dəyərləndirmək, Vətənə, dövlətçiliyimizə sədaqətlə, mənsub olduğumuz sahədəki əzmkar və təşəbbüskar fəaliyyətimizlə göstərilən etimadı doğrultmaq qalır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır".***

✍ **Aytac CƏFƏRLİ**

## Azərbaycan çempionatının qalibi Məhəmməd Muradlı



*Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatına yekun vurulub.*

Azərbaycan çempionatının final görüşündə beynəlxalq usta Məhəmməd Muradlı (2528) ilə qrossmeyster Misrətdin İsgəndərov (2566) üz-üzə gəliblər. Rəqiblərin ilk gündə keçirilən görüşündə ağ fiqurlarla mübarizə aparan Məhəmməd qalib gəlib. İkinci gündə keçirilən görüş daha gərgin xarakter daşıyıb. Burada da üstünlüyü ələ alan Məhəmməd Muradlı qalib gələrək Azərbaycan çempionu adına layiq görülüb.

Üçüncü yer uğrunda görüşdə isə qrossmeyster Vasif Durarbəyli (2615) qrossmeyster Aydın Süleymanlı (2530) ilə qarşılaşıb. Hər iki görüşü qələbə ilə başa vuran ötən ilin çempionu Vasif cari ildə çempionatı üçüncü pillədə başa vurub.

Qeyd edək ki, final mərhələsinə vəsiqə qazanan 4 zəka sahibi mart ayında Sloveniyada keçirilən kişilər arasında Avropa çempionatına ezam ediləcək.

Sonda qalib şahmatçılar diplom, medal və pul mükafatı ilə təltif ediliblər.

Tədbir başa çatdıqdan sonra Azərbaycan çempionatının qalibi, beynəlxalq usta Məhəmməd Muradlının fikirlərini öyrəndik: "Çempionatdan öncə final mərhələsinə rahat şəkildə vəsiqə qazanacağımı düşünürdüm, lakin çempionatın gedişatı belə göstərmədi. Ölkə birinciliyinə istədiyim kimi başlaya bilmədim və ilk 7 turdan sonra 3,5 xalla turnir cədvəlinin orta pillələrində qərarlaşmışdım. Ancaq məşqçimin də köməkliyi və dəstəyi ilə sonrakı oyunlarda özümü topparladım və final mərhələsinə vəsiqə qazandım. Bu mərhələyə düşdükdən sonra artıq birinci mərhələdəki bütün uğursuzluqlarımızı unutmağa çalışdım və birgünlük istirahətdə yalnız buna kökləndim. Final mərhələsinə də uğursuz başladım. Vasif Durarbəyli ilə görüşdə 20 gedişlik məğlubiyyətlə üzləşdim. Ancaq özümü itirmədim və geri dönüş edə bildim. Final oyunu da çox maraqlı alındı. Hər ikimiz üçün də şans var idi, ancaq sonda mən daha diqqətli oyun göstərə bildim və qələbə qazandım. Çempionatın Naxçıvanda keçirilməsi mənim üçün düşərli oldu. Şahmatçılar üçün hər şey yüksək səviyyədə təşkil olunmuşdu və özümüzü burada çox rahat hiss edirdik. İştirakçılar adından çempionatın yüksək səviyyədə təşkili üçün təşkilatçılara minnətdarlığımı bildirirəm".

✍ **Ceyhun MƏMMƏDOV**

## İdmançıların hazırlıq prosesi ilə tanışlıq

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı və müavini Məcid Seyidov Şərur Rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən idman zallarının fəaliyyəti ilə yaxından tanış olublar. Boks, güləş, kikboks, tir atıcılığı və ağır atletika zallarına baxış keçirilib, problem və çatışmazlıqların həlli, həmçinin yaradılan şəraitdən səmərəli istifadə ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib, məşq prosesləri izlənilib.

Məşqçi-müəllim və idmançılarla görüşən nazir onların qayğıları ilə maraqlanıb. Ramil Hacı görüşlər zamanı ölkəmizdə, eləcə də muxtar respublikada bədən tərbiyəsi və idmana göstərilən yüksək dövlət qayğısını xatırladaraq bildirib ki, bölgələrdə də bu sahənin inkişafı diqqətdə saxlanılır, idmançıların rayondan kənardakı yarışlarda iştirakının davamlı təmini, əhalinin, xüsusilə uşaq və yeniyetmələrin idmana cəlbi, mövcud maddi-texniki imkanların genişləndirilməsi və məşq bölmələrinin artırılması prosesi davam etdirilir. Məqsəd insanların bu sahəyə cəlbi ilə cəmiyyətdə sağlam həyat tərzinə nail olmaq, milli dəyərlərə bağlı gənclik modelini qorumaq və inkişaf etdirməkdir.

Qeyd edək ki, bu tipli görüşlər bundan sonra da davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Mühasiblər təlimə cəlb edilib



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində "Məzuniyyət hüququ və onun təmin edilməsi" mövzusunda ikigünlük təlim keçirilib.*

Mərkəzin direktoru Mehriban İmanova tədbiri giriş sözü ilə açaraq təlimin aktuallığı və mahiyyəti barədə danışıb.

Təlimin ilk günü Maliyyə Tədris Mərkəzinin əməkdaşı Zəhra İsmayılova tərəfindən "Məzuniyyət hüququ və onun həyata keçirilməsi qaydaları" mövzusunda elektron materiallarla zənginləşdirilmiş çıxışı olub. Çıxışda məzuniyyətdən istifadə zamanı işçilərin hüquqi təminatları, məzuniyyətin növləri və müddətləri, ödənişsiz məzuniyyət, onun növləri və verilmə müddətləri, əsas və əlavə məzuniyyətlərin birləşdirilməsi və başqa mövzular diqqətə çatdırılıb.

Növbəti gün təlimçi Yeganə Talıbovanın "Məzuniyyət hüququnun tənzimlənməsinin praktik izahı" mövzusunda tapşırıqlarla təqdimatı olub. Təlim zamanı məzuniyyət vaxtı üçün orta əməkhaqqının hesablanması və ödənilməsi, məzuniyyət haqqı hesablanarkən nəzərə alınan və alınmayan əməkhaqqı növləri və digər modullar ətrafında lazımi məlumatlar verilib.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

*Bildiriş*

"Elnarə-79" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 2000050811) fəaliyyətini dayandırdığından ləğv olunur.

***

"Rabitə Tikinti Təmir Quraşdırma" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 0200707481) fəaliyyətini dayandırdığından ləğv olunur.

*İtmişdir*

Abdullayev İsmayıl Nəriman oğlunun adına olan avtomobilin 68-BC-582 nömrəsi itdiyindən etibarsız sayılır.

***

Cəlilli İlkin Niyaməddin oğlunun adına olan AD 144044 nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

"Rabitə Tikinti Təmir Quraşdırma" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN 0200707481) məxsus hüquqi qeydiyyat sənədləri itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 168